

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 79 (23.721)

1 may 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Litva Respublikasının Xarici İşlər Naziri Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-Litva ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələləri müzakirə olunub. Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarının işğalı və postmüharibə dövründə yaranmış vəziyyətlə bağlı ölkəmizin mövqeyini çatdırıb.

Söhbət zamanı Azərbaycan Respublikası-Avropa İttifaqı əməkdaşlığı məsələləri müzakirə edilib və Azərbaycan Respublikası-Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvarlıq ifadə olunub.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti aprel ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2021-ci il 20 aprel tarixli Qərarı ilə "İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nda və "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nda dəyişiklik edilmişdir. Birinci Qaydada edilmiş dəyişikliyə görə peşə hazırlığı işaxtaran və işsiz şəxslərin əlavə təhsili, o cümlədən peşənin öyrənilməsi, ixtisasın artırılması, yenidən hazırlıq, yaşlıların təhsili və digər təhsil istiqamətləri üzrə təşkil edilir. Peşə hazırlığı üzrə təşkil edilən kurslarda təhsil müddəti 6 (altı) aya qədərdir və peşə hazırlığının təşkili zamanı 3 ildən artıq işləməyənlər, peşəsi (ixtisası) olmayanlar, habelə şəhid ailəsinin üzvləri üstün hüquqa malikdirlər.

Həmçinin Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə "Aqrar sığorta Qaydaları" təsdiq edilmişdir. Müvafiq qaydalara əsasən kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsullarının sığortası üzrə ting (şitil) və ağac (kol) təminatına dair sığorta müqavilələrində sığorta predmetinə tam zərər dəyməsi faktı sığorta hadisəsi hesab edilir. Kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsullarının sığortası üzrə məhsul təminatına dair sığorta məbləği bitkinin əkildiyi ərazinin sahəsi, gözlənilən məhsulun miqdarı və qiyməti, ting (şitil) təminatına dair sığorta məbləği həmin tingin (şitilin) bazar qiyməti, ağac (kol) təminatına dair sığorta məbləği isə gözlənilən məhsulun miqdarının üç misli nəzərə alınaraq hesablanır. Kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanların sığortası üzrə sığorta müqaviləsində ümumi sığorta məbləği və sığortalanan hər baş heyvan üçün sığorta məbləği göstərilir. Ümumi sığorta məbləği sığortalanan heyvanların sayı və bazar qiymətləri, sığortalanan hər baş heyvan üçün sığorta məbləği isə həmin heyvanın bazar qiyməti nəzərə alınaraq hesablanır.

Bunlarla yanaşı, Nazirlər Kabinetinin 2021-ci il 22 aprel tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında ərzaq balansının tərtib olunması Qaydası" təsdiq edilmişdir.

Eyni tarixli bir digər Qərar ilə "Elektrik enerjisindən istifadə Qaydaları"nda dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda dəyişiklik edilmişdir. Həmin dəyişikliyə görə müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına müavinət, təqaüd və kompensasiyanın təyin olunması üçün müraciət, onların valideynlərinin və digər qanuni nümayəndələrinin (övladlığa götürənin, qəyyumun, himayəçinin) yaşadığı ərazi üzrə edilir.

Nazirlər Kabinetinin 2021-ci il 28 aprel tarixli Qərarı ilə "İri sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsinin müddətlərinin və ardıcıllığının müəyyən edilməsi haqqında" 2019-cu il 1 aprel tarixli 31 nömrəli Qərarında dəyişiklik edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## "Mütaliə aylığı"nda keçirilən tədbirlərdə 11 mindən çox şagird iştirak edib



*Aprelin 30-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən elan olunan "Mütaliə aylığı"nın yekununa həsr olunmuş tədbir keçirilib.*

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil edilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, gənc nəslin dünyagörüşünün formalaşmasında, onların bədii təxəyyülünün inkişafında, mütaliə mədəniyyətinin, oxu vərdişlərinin artırılmasında və hərtərəfli inkişaf etmiş bir vətəndaş kimi yetişməsində mütaliənin rolu müstəsna əhəmiyyətə malikdir.

Təhsil naziri diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamı da bu istiqamətdə görülən işlərin davamı olmaqla yanaşı, həm də uşaq, yeniyetmə və gənclərin Azərbaycançılıq ideologiyasına bağlı, Vətənə, xalqa sədaqət ruhunda tərbiyəsində mühüm rol oynayır.

Muxtar respublika məktəblərində yaradılan şəraitin şagirdlərin mütaliəyə cəlb edilməsinə, onlarda mütaliə mədəniyyətinin formalaşdırılmasına geniş imkanlar açdığını bildirən nazir vurğulayıb ki, tədris ili ərzində şagirdlərin elmi-kütləvi və bədii ədəbiyyat nümunələrinin oxunmasına təşviq edilməsi istiqamətində davamlı tədbirlər keçirilir. Tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, şagirdlərin kütləvi olaraq mütaliəyə cəlb edilməsi baxımından 2019-cu ildən etibarən Təhsil Nazirliyi tərəfindən aprel ayı muxtar respublikanın ümumtəhsil məktəblərində "Mütaliə aylığı" elan edilir. Cari tədris ilində də bununla əlaqədar təsdiq olunan tədbirlər planına əsasən aprel ayı ərzində müxtəlif tədbirlər – kitab müzakirələri, dram, inşa, şeir, sürətli oxu müsabiqələri, konfrans, dəyirmi masa və digər tədbirlər keçirilib.

Rəhman Məmmədov təhsilə göstərdiyi diqqət və qayğıya görə bütün təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib, "Mütaliə aylığı" çərçivəsində təşkil edilən müsabiqələrin qaliblərini təbrik edib.

Tədbir bədii hissə ilə davam edib, qaliblərə diplom və kitablar verilib, "Mütaliə aylığı" çərçivəsində keçirilən tədbirlərdən ibarət videoçarxa baxış olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

## Qars müqaviləsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans olub

"Naxçıvan" Universitetinin təşkilatçılığı ilə "Qars müqaviləsi 100 il: Tarixi-siyasi əhəmiyyəti və bu günün siyasi reallıqları" mövzusunda keçirilən konfransı giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il 8 fevral tarixdə "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb.



Qeyd edilib ki, 1921-ci il oktyabrın 13-də imzalanmış Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm tarixi sənəddir. 20 maddə və 3 əlavədən ibarət və müddətsiz imzalanan müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın statusu ilə bağlıdır. Həmin maddəyə əsasən tərəflər Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalması məsələsində razılığa gəliblər.

Rektor çıxışında ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini daim yüksək qiymətləndirərək dediyi: ***"Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir"*** fikirlərini xatırladıb, Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunmasının dövlətçilik tariximizdə mühüm mərhələ olduğunu bildirib. Çıxışda bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasının bütün dövrlər üçün aktual və vacibliyi vurğulanıb.

İstanbul Zaim Universitetinin professoru Məhmət Əli Bolat "Qars müqaviləsinin Türkiyə üçün əhəmiyyəti" mövzusunda məruzə edərək bildirib ki, XX əsrin əvvəlində Cümhuriyyətini elan edən Türkiyə Azərbaycanın milli müstəqilliyinin qorunmasında və Cənubi Qafqazda sülhün təmin edilməsində hər zaman əsas qüvvələrdən biri olmuşdur. 16 mart 1921-ci ildə Türkiyə ilə Rusiya arasında bağlanan Moskva, xüsusilə də 13 oktyabr 1921-ci ildə Türkiyə, Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan arasında bağlanan Qars müqaviləsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunması baxımından əhəmiyyətli idi. Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsini təsdiq edən Qars müqaviləsinin 5-ci maddəsinə əsasən Ermənistan Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razı olmuş və onun sərhədlərini tanımışdır.

Müasir dövrümüzdə Naxçıvanın ərazi bütövlüyünün qorunmasında böyük əhəmiyyəti olan müqaviləni qüvvədən salmaq istəyən ermənilərin bunun üçün ciddi cəhdlə çalışdıqları deyən məruzəçi bu xülyanın gerçəkləşməyəcəyini, baş verə biləcək hər hansı təxribatda Türkiyənin birbaşa müdaxilə hüququ olduğunu xatırladıb.

"Moskva və Qars müqavilələrində Naxçıvan məsələsi" mövzusunda məruzə edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Xəqani Məmmədov isə müqavilənin imzalandığı tarixi şəraitdən danışıb. Həmin tarixi dönəmə aid qeydlər barədə iştirakçılara məlumat verib, müqavilələrin imzalanması ilə Naxçıvanın təhlükəsizlik məsələsinin birdəfəlik həll olunduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, müddətsiz imzalanan müqaviləyə əsasən Naxçıvan üçüncü dövlətə güzəşt edilə bilməz. Bu maddə ilə həm də ermənilərin əraziyə olan iddiaları əbədi olaraq tarixə qovuşub.

Almaniyanın Bonn Universitetinin tədqiqatçısı Türkanə Allahverdiyeva "Mudros müqaviləsindən Qars müqaviləsinə, Türkiyə və Naxçıvan məsələsi" adlı məruzəsində Mustafa Kamal Atatürkün "Türkün qapısı" adlandırdığı Naxçıvanın regiondakı geosiyasi əhəmiyyətindən, qonşu ölkələrin zaman-zaman buraya yiyələnmə cəhdlərindən danışıb.

"Naxçıvan" Universitetinin dosenti Elçin Zamanlı "Gümrü-Moskva-Qars müqavilələri Naxçıvanın qurtuluşunun və siyasi-hüquqi muxtariyyətinin tarixi təminatçısıdır" mövzusunda məruzə edib. Vurğulanıb ki, Naxçıvanın statusu və təbeçiliyi məsələsi bu beynəlxalq müqavilə ilə tam şəkildə həll edilib, bu beynəlxalq tarixi sənəd bundan sonra da öz hüquqi qüvvəsini saxlayacaq.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

# Muxtar respublikada sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir

***Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra dövlət idarəçiliyi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmiş, dövlət strukturları dünya təcrübəsinə uyğunlaşdırılmış, ümumi inkişafa xidmət edən qurumlar yaradılmışdır. İqtisadiyyat Nazirliyinin yaradılması ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının, o cümlədən struktur islahatlarının mühüm mərhələlərindən biridir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 1 may tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Əmlakı və Ticarət nazirlikləri, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi ləğv edilərək onların bazasında İqtisadi İnkişaf Nazirliyi yaradılmış, 2014-cü il 10 aprel tarixli Sərəncama əsasən həmin nazirliyin əsasında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi yaradılmışdır. Ali Məclis Sədrinin 2016-cı il 19 yanvar tarixli Sərəncamına əsasən İqtisadiyyat və Sənaye Nazirliyinin adı dəyişdirilərək İqtisadiyyat Nazirliyi adlandırılmış, 2016-cı il 19 yanvar tarixli Fərmana əsasən Naxçıvan Muxtar Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyi ləğv edilərək vəzifə və funksiyaları Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi muxtar respublikada iqtisadi siyasətin həyata keçirilməsində, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən sənayenin inkişafı, iqtisadiyyatın struktur və innovasiya, investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi, istehlak bazarında qiymətlərə nəzarət, dövlət satınalmaları, xarici ticarət əlaqələri, sosial-iqtisadi inkişaf və mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətinin həyata keçirilməsində başlıca rol oynayan mərkəzi icra hakimiyyəti orqanıdır. Bu qurum da hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş, nazirliyin inzibati binası yenidən qurularaq maddi-texniki bazası gücləndirilmişdir. Eyni zamanda nazirliyin tabeliyindəki qurumlar üçün müasir standartlara uyğun yeni binalar tikilmiş, maddi-texniki bazaları möhkəmləndirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün 2008-ci ildə yeni bina tikilərək istifadəyə verilmiş, ən müasir avadanlıqlarla təchiz edilmişdir.



Muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin Mərkəzi Qida Sınaq Laboratoriyası idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını mütəmadi olaraq davam etdirir. Keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə laboratoriyanın beynəlxalq akkreditasiyadan keçirilməsi istiqamətində bütün zəruri tədbirlər görülmüş, beynəlxalq akkreditasiya qurumu tərəfindən cəmiyyətdə monitorinqlər aparılmaqla, akkreditasiyanın müddəti 2023-cü ilədək uzadılmışdır.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən iqtisadi inkişaf modelinin strateji istiqamətlərindən biri mövcud təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunmasıdır. Bu da, öz növbəsində, regionların sosial-iqtisadi inkişafı, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və bir sıra konkret sahələr üzrə mühüm Dövlət proqramlarının qəbul edilməsinə şərait yaratmışdır. Bu mühüm sənədlərin bir çoxu indi də uğurla icra olunur. Buna misal olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nı və "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nı göstərmək olar. Bu proqramların fərqləndirici xüsusiyyətləri onların iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə almaqla və gələcəyə hesablanmaqla hazırlanmışdır.

Ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən birini dövlət əmlakının qorunması və dövlət mülkiyyətinin özəlləşdirilməsi təşkil edir. Dövlətin iqtisadi siyasətinin əsas məqsədlərinə uyğun olaraq muxtar respublikada da özəlləşdirmə prosesi uğurla həyata keçirilməkdədir. Bu istiqamətdə dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi və özəlləşdirilməsi, cəmiyyətlərin fəaliyyətinin bərpası və ya yeni istehsal və xidmət sahələrinin qurulması, müəssisə, təşkilat və obyektlərin, nəqliyyat vasitələrinin, torpaq sahələrinin özəlləşdirilməsi, dövlət mülkiyyətində olan obyektlərin icarəyə verilməsi, dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadəsinə nəzarət olunması təmin edilmişdir. Dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi başlandığı dövrdən indiyədək 48 səhmdar cəmiyyət, 4 minə yaxın kiçik müəssisə və obyekt özəlləşdirilmiş, nəticədə, 20 milyon manatdan artıq vəsait qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinə, müəssisə və təşkilatların hesabına köçürülmüşdür.

İqtisadiyyat Nazirliyinin yaradılması sahibkarlığın inkişafına dövlət dəstəyi və onun dövlət tənzimlənməsi tədbirlərinin vahid qurumda birləşdirilməsinin və idarə edilməsinin əsasını qoymuş və sahibkarlığın inkişafını iqtisadi inkişafın tərkib hissəsinə çevirmişdir. Bu illər ərzində sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikasında sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilmişdir. Zəruri hüquqi mühitin formalaşdırılması istiqamətində qəbul edilmiş qanunlar və digər qanunvericilik aktları sahibkarlığın bir sistem halında hüquqi bazasını təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 7 avqust tarixli Fərmanına əsasən muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına köməklik etmək, onlara maliyyə dəstəyi göstərmək və əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən fondun vəsaitləri sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. 2000-ci ildən ötən dövr ərzində fond tərəfindən 1536 layihənin maliyyələşdirilməsinə 169 milyon 388 min 854 manat güzəştli kreditlər ayrılmışdır. Həmin vəsait sənaye, xidmət, kənd təsərrüfatı təyinatlı sahələrin maliyyələşdirilməsinə yönəldilmişdir.

Sahibkarların fəaliyyətlərinə kənar müdaxilələrin qarşısının alınması, hüquqlarının müdafiəsi məqsədilə Ali Məclis Sədrinin "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 30 sentyabr tarixli Fərmanına müvafiq olaraq son illər ərzində sahibkarlar 4313 nəzarət kitabçası ilə təmin edilmiş, nazirlikdə yaradılmış "Qaynar xətt" vasitəsilə sahibkarlıq subyektləri ilə maarifləndirmə istiqamətində işlər aparılmış, onların problemləri öyrənilmiş və nazirliyin səlahiyyətləri daxilində həllinə köməklik göstərilmişdir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə reklam və kommersiya fəaliyyətləri ilə əlaqədar köməklik göstərilməsi məqsədilə 2004-cü ildə nazirliyin nəzdində "Əl işlərinin, sənət əsərlərinin Sərgi-Satışı və Sahibkarların İnformasiya Mərkəzi" yaradılmışdır. 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirən müəssisədə sahibkarlıq subyektləri, habelə sənətkarlar tərəfindən istehsal olunan məhsulların nümayişi, satışı, sahibkarlıq subyektlərinin əlaqələrinin və onların məhsullarının satış bazasının genişləndirilməsi, müxtəlif tədbirlərin, beynəlxalq konfransların, forum və seminarların, tədris kurslarının təşkili, sahibkarların maarifləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

Kompleks islahatlar birbaşa muxtar respublikada sahibkarlığın inkişafına güclü təkan verən amillərdir. Məhz buna görədir ki, muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilmişdir. Bu gün muxtar respublikada geniş profilə malik sahibkarlıq subyektlərinin fəaliyyət göstərməsi, iş yerlərinin açılması, ümumi daxili məhsul istehsalında özəl bölmənin payının artaraq 88 faizi ötməsi bu siyasətin real bəhrələridir. Belə ki, müstəqillik illərində muxtar respublikada yüksək texnologiyalar əsasında maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yüngül, yeyinti və kənd təsərrüfatı təyinatlı 1051 istehsal və xidmət sahəsinin yaradılmasına nail olunmuşdur. Muxtar respublika rəhbəri hər il ənənəvi olaraq sahibkarlarla görüşür, onların fəaliyyəti ilə maraqlanır, qarşılarına mühüm vəzifə və tapşırıqlar qoyur, bir sıra tövsiyələr verir. Cari il fevralın 27-də Naxçıvan Biznes Mərkəzində sahibkarlarla keçirilən görüşdə Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, həqiqi sahibkar olmaq üçün birinci növbədə gərək yaxşı iş qurasan, ikinci növbədə gərək sahibkar kimi ölkənin iqtisadi tərəqqisi üçün səylər göstərəsən, öz nüfuzunu, hörmətini və imicini daim qoruyasan. Dahi şəxsiyyətin tövsiyələri hər bir sahibkar üçün əsas fəaliyyət istiqamətidir. Dövlətimiz üzərinə düşən vəzifələri yerinə yetirir. Sahibkarlar da dövlət qarşısında öhdəliklərinə əməl etməli, istehsal və xidmət müəssisələrində təhlükəsiz və sağlam əmək şəraiti yaradılmalı, mövcud imkanlar düzgün qiymətləndirilməli və ümumi inkişafa töhfə verilməlidir".***



Artıq muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 127 növdə, 608 çeşiddə ərzaq, 257 növdə, 925 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 384 növdə, 1533 çeşiddə məhsul istehsal olunur. İstehsal edilən 108 növdə ərzaq, 242 növdə qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi idxaldan asılılığın ciddi şəkildə azaldılmasına, əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə şərait yaratmışdır.

Muxtar respublikamızda sahibkarlığın inkişafına yaradılmış şərait məhsul ixracını da stimullaşdırıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 fevral tarixli Sərəncamı ilə muxtar respublikanın ixrac potensialının artırılması və ixraca dövlət dəstəyinin daha da gücləndirilməsi məqsədilə 2020-ci ilin Naxçıvan Muxtar Respublikasında "İxrac ili" elan edilməsi, 2021-ci ilində "İxrac ili" kimi saxlanılması, 2020-ci il 6 mart tarixli Sərəncamla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı" muxtar respublikada iqtisadi strategiyanın sahibkarlıq subyektlərinin əlaqələrinin inkişaf etdirilməsinə, istehsal olunan məhsulların ixrac imkanlarının artırılmasına yönəldildiyini bir daha təsdiq edir.

2004-2010-cu illərdə təşkil edilən Azərbaycan-Türkiyə biznes-forumları, 2014-cü ildə 75 xarici şirkətin və 120-dən çox yerli sahibkarın iştirakı ilə Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü biznes forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü toplantısı muxtar respublikanın iqtisadi həyatında əlamətdar hadisələrdəndir. Ümumilikdə, 2020-2021-ci ilin ötən dövrü ərzində 50-dən çox ölkədə keçirilmiş 378 tədbirdə 1887 halda sahibkarlıq subyektlərinin 1987 nümayəndəsinin iştirakı təmin edilmişdir.

Ümumi iqtisadi inkişafa təsir göstərən amillərdən biri də yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılması, ixrac potensialının gücləndirilməsidir. Bu gün muxtar respublikada fəaliyyət göstərən 40-a yaxın ixrac potensiallı müəssisədə ixracyönümlü məhsullar istehsal edilir. ABŞ, Çin, BƏƏ, Rusiya, Türkiyə, İran, Ukrayna, Qazaxıstan, Türkmənistan kimi ölkələrə elektrik enerjisi, mineral sular, daş məhsulları, tikinti materialları, tütün məmulatları, mebel məhsulları ixrac olunur. Muxtar respublikada sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənmiş və 2009-cu ildən başlayaraq xarici ticarətdə müsbət saldo yaranmışdır.

Daha bir islahat tədbiri isə 2016-cı ildən etibarən investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədlərinin verilməsidir. Ümumilikdə, 2016-cı ildən etibarən 16 layihə üzrə 72 milyon 773 min 113 manat məbləğində investisiya təşviqi sənədi, 56 ixrac əməliyyatı üzrə isə 119 min 366 manat ixrac təşviqinin ödənilməsi həyata keçirilmişdir.




Dünya təcrübəsinin mənimsənilməsi, peşə və bilik səviyyəsinin artırılması məqsədilə Türkiyə, Almaniya, Sinqapur, Misir, Koreya, Hindistan, Belarus, Latviya, Bolqarıstan, Estoniya, İspaniya, İtaliya kimi ölkələrdə keçirilən ixtisasartırma kurslarında nazirliyin əməkdaşları və sahibkarlar iştirak etmişlər.

İqtisadiyyatın bütün sahələrində aparılan islahatların qısa zaman kəsiyi ərzində verdiyi çoxsaylı müsbət nəticələr bir daha muxtar respublikada əzmlə həyata keçirilən iqtisadi siyasətin düzgünlüyünü sübut edir.

***Yaradılmasının 20 ili tamam olan Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi də məhz muxtar respublikamızın inkişaf və tərəqqisi naminə Ali Məclis Sədrinin həyata keçirdiyi irimiqyaslı tədbirlərə öz töhfəsini vermək üçün qarşıya qoyulan vəzifələri uğurla icra edir. Kollektiv bundan sonra da verilən tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün bütün səy və bacarığını əsirgəməyəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada mətbuat və söz azadlığı təmin edilib




*Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1993-cü il 20 dekabr tarixli Qərarı ilə hər il may ayının 3-ü "Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü" kimi qeyd olunur.*

Kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətinin təmin edilməsi hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşması prosesinin ayrılmaz tərkib hissələrindən biridir. Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir.

Azərbaycanda söz, fikir və mətbuat azadlığına ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyəti nəticəsində nail olunmuşdur. Görkəmli dövlət xadiminin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra müstəqil dövlət quruculuğunda mühüm rol oynayan kütləvi informasiya vasitələrinin cəmiyyətdə ictimai nüfuzunun artması, fəaliyyət dairəsinin genişlənməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Ümummilli liderin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkəmizdə senzura ləğv edilmiş, mətbuat cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilmişdir. 1999-cu il dekabrın 7-də qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu isə bu sahədə fəaliyyəti tənzimləyən əsas hüquqi sənəd olmuş, Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və mətbuat azadlığı təsbit olunmuşdur. Müdrik dövlət rəhbəri deyirdi: ***"Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. O, həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir".***

Bu gün ulu öndərin əsasını qoyduğu mütərəqqi siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsi üçün hərtərəfli şərait yaradılır. Ölkə Prezidenti söz və mətbuat azadlığının əhəmiyyətini vurğulayaraq demişdir: ***"Bütövlükdə söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".***

Bu gün muxtar respublikamızda bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş kütləvi informasiya orqanlarını da əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra muxtar respublikanın bütün mətbuat orqanlarının normal fəaliyyəti üçün əlverişli şərait yaradılmış, onların maddi-texniki bazası gücləndirilmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Hazırda muxtar respublikanın hər bir şəhər və rayonunun özünün mətbu orqanı vardır və onların dövriyyəliliyi təmin edilmişdir.

2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması qəzetlərin günün tələblərinə uyğun nəşrinə şərait yaratmışdır. Bu gün muxtar respublikada bütün qəzet və jurnallar yüksək poliqrafik keyfiyyətlə nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə mətbuat sahəsində çalışanların əməkhaqları artırılmış, əməyi ilə fərqlənən jurnalistlər fəxri adlara layiq görülmüşlər. Hazırda muxtar respublikada "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır.

Ali Məclis Sədrinin mətbuat orqanlarına olan hərtərəfli qayğısı kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olmuşdur. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilmiş, yaradıcılıq imkanları artırılmışdır. Görülən işlərin davamı kimi 2018-ci ildə "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar alınmışdır. Ötən 2 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə dövlət teleradiosuna yeni çəkiliş və efir avadanlıqları alınmışdır. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsi yaradılmışdır. Ali Məclis Sədrinin 2021-ci il 17 mart tarixli Fərmanı ilə isə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əsasında "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır ki, bu da televiziya və radio fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsində yeni mərhələnin başlanmasına imkan vermişdir.

Bu gün "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən "Naxçıvanın səsi" radiosu və "Kanal 35" televiziyası ən müasir rəqəmsal bazaya malikdir. Cəmiyyətin 2016-cı ildə saytı istifadəyə verilmiş və televiziya internet üzərindən yayıma başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 6 fevral tarixli Sərəncamına əsasən "Nuhçıxan" İnformasiya Agentliyi yaradılmış, agentliyin saytı hazırlanmışdır. Hazırda "Nuhçıxan" İnformasiya Agentliyi muxtar respublika ilə bağlı ən mühüm informasiya, təhlil və analitik məqalələri, foto və videoinformasiyaları dünyaya çatdırır. Bununla bərabər, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Artıq "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu bu ilin əvvəlindən təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirir.

Həyata keçirilən mühüm tədbirlər, o cümlədən internet resurslarından geniş istifadə üçün yaradılmış şərait muxtar respublikada fəaliyyət göstərən mətbu orqanları tamamilə əhatə etmişdir. Ötən dövrdə muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə müasir poçt xidmətlərinin təşkil olunması dövri mətbuatın oxuculara vaxtında çatdırılmasını təmin edir. Həmçinin informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi muxtar respublikada internet şəbəkəsinin əhatə dairəsini xeyli genişlənmiş, ən ucqar kəndlərdə belə, genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilməsinə şərait yaradılmışdır. "Naxtel" mobil operatorunun fəaliyyətə başlaması isə Naxçıvanda 4G internetdən istifadəyə geniş imkanlar açmışdır. Nəticədə, ötən əsrin 90-cı illərindən informasiya blokadasına salınan Naxçıvan bu gün dünya informasiya məkanının bir hissəsinə çevrilmişdir. Muxtar respublikada baş verən yeniliklər, sosial-iqtisadi inkişaf, ictimai-mədəni hadisələr, beynəlxalq tədbirlər, diyarımızın turizm potensialı haqqında materiallar geniş tamaşaçı, dinləyici, izləyici və oxucu auditoriyasına çatdırılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələrin təsis olunması dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsasını qoymaqla yanaşı, həm də informasiya ehtiyatlarının təhlükəsizliyinin təmin olunması sahəsində konkret istiqamətlər müəyyənləşdirmişdir.

2011-ci ildən etibarən "Şərq qapısı" qəzetinin internet saytı fəaliyyətə başlamış, qəzetin elektron arxiv bazası yaradılmışdır. Sayt 2019-cu ildə tamamilə yenilənmiş, müasir tələblərə cavab verən formaya salınmışdır. Bu gün artıq muxtar respublikada fəaliyyət göstərən bütün kütləvi informasiya vasitələrinin sosial şəbəkə hesabları var. Sürətli internetin təminatı Naxçıvanla bağlı informasiyaların geniş auditoriyaya çatdırılmasına imkan verir. Həmçinin xarici kütləvi informasiya vasitələrinin bu qədim diyara marağını artırır. Son illərdə dünyanın müxtəlif ölkələrindən jurnalistlərin Naxçıvana səfərləri, həmçinin nüfuzlu media orqanlarının muxtar respublika haqqında hazırladıqları materiallar bunu bir daha təsdiq edir. Bütün bunlar isə muxtar respublikada söz və mətbuat azadlığının, demokratik prinsiplərin bərqərar olmasının, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün yaradılmış şəraitin nəticəsidir.

Bu gün muxtar respublikada jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası fəaliyyət göstərir ki, burada təhsil alan tələbələrin gənc jurnalist kimi yetişməsi üçün hər cür şərait var. Belə ki, ali təhsil ocağının media mərkəzində fəaliyyət göstərən "Universitet" televiziyası və "Nuhçıxan" radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə də yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Ali Məclis Sədrinin bu sahəyə göstərdiyi qayğı sayəsində Universitet Televiziyası 2021-ci il fevralın 24-dən etibarən artıq muxtar respublika ərazisində yayıma başlayıb. Həmçinin muxtar respublikada fəaliyyət göstərən kütləvi informasiya vasitələri Jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin hamisi rolunda çıxış etməklə, onların peşəkar inkişafında mühüm rol oynayır.

Muxtar respublikada media orqanlarının hərtərəfli fəaliyyəti üçün yaradılmış şərait, jurnalist kadrların hazırlanması sahəsində həyata keçirilən tədbirlər, eyni zamanda gənc kadrların işə qəbul qaydalarında da müasir tələblərin tətbiqini zəruri etmişdir. Belə ki, "Naxçıvan Muxtar Respublikasının dövlət teleradio və mətbuat orqanlarına işə qəbul Qaydaları"nın təsdiq edilməsi ilə media orqanlarında işə qəbul Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müsabiqə yolu ilə həyata keçirilir ki, bu da peşəkar kadr hazırlığı işinə mühüm töhfədir.

Muxtar respublikada son illər mətbuata göstərilən qayğı nəticəsində ona nail olunub ki, bir vaxtlar həm texniki avadanlıq, həm də yaradıcı kadr sarıdan məhdud imkanlara malik Naxçıvan mətbuatı bu gün ölkə və dünya media orqanları ilə qarşılıqlı əməkdaşlıq edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov milli mətbuatımızın 145 illik yubileyində jurnalistlərlə keçirilən görüşdə demişdir: ***"Mətbuat işçiləri dövrün salnaməsini yaradan və onu gələcəyə daşıyanlardır. Muxtar respublikada jurnalistlərin fəaliyyəti üçün yaradılan şərait qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verir. Bu gün dünyada mövcud olan muxtar qurumların mətbuat sahəsinə nəzər saldıqda, müqayisə etdikdə bir daha aydın olur ki, muxtariyyət statusu bizdən daha çox olanlarda belə, Naxçıvandakı qədər mətbuata qayğı göstərilmir, şərait yaradılmır. Bu da bizi qürurlandırır ki, muxtar respublikamızda vətənpərvər jurnalistlər ordusu formalaşıb. Televiziya, qəzet və digər media qurumları yaratmaq işin bir tərəfidir. Amma əsas məsələ onların səmərəli fəaliyyətinə nail olmaqdır".***

Muxtar respublikanın kütləvi informasiya vasitələri işçiləri mətbuat və söz azadlığı üçün yaradılan imkanlardan istifadə edərək Ali Məclis Sədrinin həmin görüşdə səsləndirdiyi ***"Hər bir jurnalist öz qələmi ilə Vətəninə, xalqına xidmət etməlidir"*** tövsiyəsini bundan sonra da əldə əsas tutaraq medianın maarifçilik ənənələrini və milli dəyərlərimizin təbliğatını davam etdirəcək, bu günümüzün tarixini yaratmaqla, ictimaiyyəti düzgün istiqamətləndirməklə vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edəcəklər.

**"Şərq qapısı"**

# Ali təhsil ocağında STEAM kabinəsinin təqdimatı olub



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbiri giriş sözü ilə institutun rektoru Azad Novruzov açaraq bildirmişdir ki, müasir təlim texnologiyaları içərisində STEAM dərs modeli geniş yayılmışdır. Bu metod elmi-texniki biliklərin gündəlik həyata necə tətbiq olunmasının "layihə əsaslı" öyrətmə modelidir. Dərs modeli elm, texnologiya, mühəndislik, riyaziyyat və incəsənət kimi elm sahələrinin birgə tətbiqini nəzərdə tutan bir modeldir. STEAM dərs modelinin tətbiqi üçün digər fəal təlim texnologiyalarından fərqli olaraq yaradıcı mühitin təmin edilməsi, maddi və texniki avadanlıqların varlığı mühüm şərtdir. Muxtar respublikada təhsilə göstərilən məqsədyönlü dövlət qayğısı nəticəsində bu tip kabinə və laboratoriyaların sayı muxtar respublikada gündən-günə artır. İnstitutda STEAM kabinəsinin yaradılması müəllim hazırlığını həyata keçirən ali məktəb üçün çox əhəmiyyətlidir. Bu kabinənin imkanlarından bu günün tələbələri olan gələcək müəllimlər, həm də diplomdan sonrakı ixtisasartırma və təkmilləşdirmə kursuna cəlb olunan müəllimlər istifadə edə biləcəklər.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında dövlət qayğısı nəticəsində 2020-2021-ci tədris ilindən muxtar respublikada STEAM layihəsinin tətbiqinə başlanılıb. Ötən müddət ərzində 15 məktəb və məktəbdənkənar tərbiyə müəssisələrində STEAM kabinələri, Heydər Əliyev adına tam orta məktəbdə isə STEAM Tədris Mərkəzi yaradılıb. Hazırda isə əlavə olaraq 38 məktəbdə STEAM kabinələrinin yaradılmasına başlanılıb.

Vurğulanıb ki, STEAM-ın tətbiqi təkcə kabinələrin yaradılması və tədris materiallarının çap olunması ilə yekunlaşmayıb, bu sahədə kadrların hazırlanması istiqamətində də tədbirlər həyata keçirilib. Bu günə qədər 80 müəllimə Naxçıvan Muxtar Respublikası, 150 müəllimə isə Azərbaycan Respublikası Təhsil nazirlikləri tərəfindən STEAM təlimləri keçirilib.

Təhsil naziri qeyd edib ki, Naxçıvan Müəllimlər İnstitutunda STEAM kabinəsinin yaradılması pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrin məktəblərdə tətbiq olunan STEAM təlim metoduna əvvəlcədən yiyələnmələrinə mühüm töhfələr verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən Naxçıvan Müəllimlər İnstitutuna STEAM dərslərinin tədrisi üçün metodik vəsaitlər, dərslik və proqramlar hədiyyə edilib.

Ali riyaziyyat və informatika kafedrasının müəllimi Fidan Əzizova çıxış edərək STEAM dərs modeli, onun mahiyyəti və gələcək perspektivlərindən danışıb.

Sonra STEAM kabinəsinin təqdimatı olub.

***Naxçıvan Müəllimlər İnstitutu mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*Dövlət proqramı icra olunur*

# Əhalinin fiziki sağlamlığının qorunması diqqət mərkəzindədir

*Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmiş və bununla da, idman sahəsində yüksəlişin bünövrəsi qoyulmuşdur. Sonrakı dövrdə isə cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda idmanın bütün sahələrinin inkişafı, idmançıların yüksək səviyyədə qayğı ilə əhatə olunması, idman komplekslərinin müasir tələblərə cavab verəcək səviyyədə qurulması, ən əsası isə olimpiya oyunlarında idmançılarımızın iştirakı üçün xeyli işlər görülmüşdür. Gərgin zəhmətin nəticəsidir ki, bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınaraq böyük nüfuz qazanıb. Prezident cənab İlham Əliyevin dediyi kimi:* ***“Hər bir idman qələbəsi, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. Ona görə idmanın hər bir ölkənin həyatında çox önəmli rolu var”.***

Naxçıvanda da bədən tərbiyəsi və idmanın inkişafı daim diqqətdə saxlanılır, keçirilən beynəlxalq və ölkə səviyyəli yarışlarda muxtar respublika idmançılarının iştirakına şərait yaradılır. Onu da qeyd etmək lazımdır ki, müasir infrastrukturun yaradılması və idman obyektlərinin sayının ildən-ilə artması muxtar respublikanı regionun idman mərkəzlərindən birinə çevirmişdir. Son illərdə Naxçıvanın bir çox ölkə və beynəlxalq səviyyəli yarışlara ev sahibliyi etməsi deyilənləri bir daha təsdiq edir. Görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Proqramın məqsədi əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter alması və idmanın müxtəlif növlərinin inkişafına şərait yaradılmasıdır.





İdmanın inkişafına təsir göstərən ən mühüm faktorlardan biri bu sahədə müasir infrastrukturun yaradılmasıdır. Fevralın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi Naxçıvanda idmanın yeni inkişaf mərhələsinə qədəm qoymasından xəbər verir.

Mərkəzdə 6 və 16 mart tarixlərdə gənclər üçün xizəksürmə təlimi təşkil olunmuşdur. Həmçinin birinci rübdə “Ağbulaq Xizəksürmə İdman Klubu”nun yaradılması ilə bağlı təşkilati tədbirlər həyata keçirilmişdir.

Muxtar respublikamızda idman komplekslərinin sayının hər keçən il daha da artması gənclərin müxtəlif idman növləri ilə məşğul olması üçün yeni imkanlar yaradır. Bu da bədən tərbiyəsi və idman sahəsində istedadlı gənclərin üzə çıxması ilə nəticələnir ki, həmin idmançılar muxtar respublikamızı müxtəlif ölkə və beynəlxalq səviyyəli yarışlarda təmsil edərək böyük uğurlara imza atırlar. İdman infrastrukturunun modern tələblər səviyyəsində qurulması işinin təhsil müəssisələrindən başlanması isə Naxçıvanda peşəkar idmançı potensialının formalaşmasına səbəb olur. Dövlət proqramının icrasına uyğun olaraq birinci rübdə təhsil müəssisələrinin idman klublarına yeni avadanlıqların təqdim olunması bu sahəyə göstərilən dövlət qayğısının mühüm təzahürüdür. Belə ki, bu dövrdə Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrinin idman klubları üçün 140 güləş döşəyi, 40 tatami, 14 tennis stolu, 14 tennis toru, 15 cüt raketka və tennis şarları, 10 dəst atletika səddi, 14 dəst yadro və 26 start qəlibləri, 108 gimnastika döşəyi, müxtəlif ölçüdə 15 fitnes topu və digər lazımi avadanlıqlar alınmışdır.

Qeyd olunanlarla yanaşı, birinci rübdə Ordubad Şəhər Stadionunun, Naxçıvan Futbol Federasiyasının təlim-məşq kompleksinin və Kəngərli rayonunda süniörtüklü futbol meydançasının yaradılması davam etdirilmişdir. Martın 11-də Naxçıvan Biznes Mərkəzində İqtisadiyyat Nazirliyi və Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə keçirilən seminarda sahibkarlıq subyektlərinə minifutbol meydançasının yaradılması layihəsinin təqdimatı keçirilmiş və bu sahədə dövlət maliyyə dəstəyi barədə məlumat verilmişdir.

İdman yeniyetmə və gənclərdə sağlam həyat tərzinin formalaşmasına, onların fiziki qabiliyyətlərinin təkmilləşməsinə və yaradıcı düşüncəyə sahib şəxsiyyət kimi formalaşmalarına səbəb olan sosial əhəmiyyətli fəaliyyət növüdür. Gənclərin müasir dövrün zərərli vərdişlərindən uzaqlaşdırılması və gələcək həyat fəaliyyətinin sağlam təməllər üzərində qurulması üçün idman əvəzolunmaz vasitədir. Muxtar respublikamızda bu sahənin inkişafına göstərilən dövlət dəstəyi sağlam şüura malik gənc nəslin yetişməsi üçün həyati əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında yaradılan müasir təhsil və idman infrastrukturu gənc nəslin bacarığına görə peşə seçiminə və təhsil almasına, müxtəlif idman növləri ilə məşğul olmasına imkan verir. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikada sağlam gənc nəsil yetişir. Gənclər zərərli vərdişlərdən və hüquqazidd hərəkətlərə uzaqdır. Hər il ali məktəblərə qəbul olan gənclərin, eləcə də yüksək bal toplayanların sayı artır, gənclər müxtəlif idman yarışlarında uğurla çıxış edir, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verirlər”.***

Dövlət proqramının icrasına uyğun olaraq birinci rübdə yeniyetmə və gənclərin sağlam ruhda böyümələri, zərərli vərdişlərdən uzaq durmaları məqsədilə “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında voleybol, şahmat, atletika, basketbol, stolüstü tennis üzrə 14 birincilik keçirilmişdir.

Yanvar-mart aylarında muxtar respublikada idmanın kütləviliyinin təmin edilməsi məqsədilə Naxçıvan şəhərində keçirilən 11 idman tədbirində 450, Şərur rayonunda keçirilən 13 idman tədbirində 468, Culfa rayonunda keçirilən 9 idman tədbirində 435, Ordubad rayonunda keçirilən 10 idman tədbirində 440, Şahbuz rayonunda keçirilən 12 idman tədbirində 458, Babək rayonunda keçirilən 8 idman tədbirində 425, Kəngərli rayonunda keçirilən 10 idman tədbirində 446 və Sədərək rayonunda keçirilən 8 idman tədbirində 430 idmançının iştirakı təmin olunmuşdur. 15-18 mart tarixlərində keçirilən bilyard idman növü üzrə turnirdə “İdman könüllüləri”nin hakim qismində iştirak etməsinə şərait yaradılmışdır.

Dövlət proqramında xüsusi diqqət yetirilən tədbirlərdən biri də muxtar respublikada idman sahəsində kadr təminatının təşkilidir. Bu tədbirlərin müəyyən olunmasında məqsəd bədən tərbiyəsi və idman sahəsində tədrisin səviyyəsinin yüksəldilməsi, pedaqoji kadrların peşə hazırlığının təkmilləşdirilməsi və tədrisin ixtisaslı müəllimlər tərəfindən aparılmasının təmin edilməsidir. Birinci rübdə muxtar respublikada Fiziki tərbiyə ixtisası üzrə 4 ixtisaslı müəllim işlə təmin olunmuş, 268 müəllim sertifikasiyadan keçirilmişdir. Eyni zamanda ixtisaslı kadr hazırlığına dəstək məqsədilə “Naxçıvan” Universitetinin Bədən tərbiyəsi və idman ixtisası üzrə təhsil alan 25 tələbəsinin ümumtəhsil məktəblərində təcrübə keçmələrinə şərait yaradılmışdır. Həmçinin bu dövrdə respublika dərəcəli hakim Füzuli Salmanovun iştirakı ilə Naxçıvan Dövlət Universitetində basketbol idman növü üzrə seminar təşkil edilmiş, 15 tələbə 2 həftə ərzində hakimlik kursuna cəlb olunmuşdur.

Bədən tərbiyəsi və idman sahəsində kadr təminatının gücləndirilməsi üçün muxtar respublikada idmanın müxtəlif növləri üzrə fəaliyyət göstərən məşqçilərin nəzəri və praktik vərdişlərinin təkmilləşdirilməsi də mühüm önəm kəsb edir. Proqramda nəzərdə tutulan tapşırıqların icrası məqsədilə 28 fevral-3 mart tarixlərdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının müvafiq ixtisaslı əməkdaşları tərəfindən Naxçıvanda futbol məşqçiləri üçün “C” kateqoriyalı məşqçilik kurslarının keçirilməsi təmin olunmuşdur. Ötən ilin sentyabr ayından başlanan kursların birinci rübdə də davam etdirilməsi bu sahədə həyata keçirilən uğurlu əməkdaşlıqdan xəbər verir.

Bütün bunlarla yanaşı, idmanın inkişafını təmin edən başlıca amillərdən biri də qarşılıqlı əməkdaşlıq fəaliyyətinin beynəlxalq səviyyədə reallaşdırılmasıdır. Dövlət proqramının icrası istiqamətində muxtar respublika idmançılarının beynəlxalq yarışlarda iştirakı təmin olunur, bu sahədə müasir dövrün çağırışlarına cavab verə biləcək idman potensialı formalaşdırılır. Bu, bir tərəfdən beynəlxalq idman aləmində baş verən yeniliklərin vaxtında və düzgün mənimsənilməsinə, digər tərəfdən muxtar respublikanın dünya idman ailəsinin bir üzvünə çevrilməsinə şərait yaradır. Birinci rübdə Naxçıvan şahmatçılarının onlayn qaydada keçirilən 6 beynəlxalq yarışda iştirakı təmin edilmişdir. Həmçinin bu dövrdə muxtar respublikada hava və ekstremal idman növləri ilə məşğul olan idmançıların və Türkiyə Respublikasından olan alpinistlərin Haçadağa yürüşü təşkil olunmuşdur. Naxçıvan Futbol Federasiyasının qapıçılar üzrə koordinatorunun Türkiyə Respublikasının Bandırma şəhərində təşkil olunan nəzəri-praktik kurslarda iştirakının təmin edilməsi qardaş ölkə ilə idman sahəsində həyata keçirilən qarşılıqlı əməkdaşlığın daha bir ifadəsidir.



Dövlət proqramında nəzərdə tutulan mühüm tədbirlərdən biri də idmançıların əməyinin qiymətləndirilməsidir. Bu istiqamətdə görülən işlər stimullaşdırıcı xarakter daşımaqla idmançıların fiziki bacarıqları qədər mənəvi hazırlıqlarının da yüksək səviyyədə olmasının təmin edilməsi məqsədi daşıyır. Unutmaq olmaz ki, idmançının malik olduğu ruh yüksəkliyi onun fiziki, texniki və taktiki hazırlığını daha da gücləndirir. Yanvar-mart aylarında muxtar respublikada keçirilən yarışlarda qalib olan 58 idmançının müxtəlif geyim dəstləri və digər idman ləvazimatları ilə mükafatlandırılması onların fiziki hazırlığının daha da artırılmasına hesablanmış mütərəqqi addımlardandır.

Müxtəlif üsullarla həyata keçirilən maarifləndirmə işi idmanın kütləviliyini təmin edən digər vacib amillərdəndir. Onu da qeyd etmək lazımdır ki, fərqli idman növləri üzrə təşkil olunan sosial şəbəkə aksiyaları, sadəcə, gənclərin deyil, eyni zamanda bütün yaş qruplarına məxsus insanların idmanla məşğul olması üçün vacib əhəmiyyət daşıyır. Bədən tərbiyəsi və idmanın yeniyetmə və gənclərlə yanaşı, yuxarı yaş qrupuna aid insanlar arasında təbliği bu sahənin daha sürətlə kütləviləşməsinə səbəb olur. Bu da Dövlət proqramında əhalidə sağlam həyat tərzinin formalaşdırılması istiqamətində müəyyən olunmuş tədbirlərin müvəffəqiyyətlə reallaşmasına imkan yaradır. Yanvar-mart aylarında “Bilmədiklərimiz”, “Bilirsinizmi?” kimi sosial şəbəkə aksiyaları vasitəsilə müxtəlif idman növlərinin üstünlükləri tanıdılmışdır. Bu aksiyalar çərçivəsində xizəksürmə, badminton, biatlon, velosiped, segway polo idman növləri üzrə məlumat xarakterli posterlər hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır. Bütün bunlarla yanaşı, birinci rübdə proqramın icrası məqsədilə Naxçıvan Televiziyasında “Naxçıvanda idman”, “Gəncsən”, “İdman klubu”, “Karyera”, “Güclü və zərif”, “Gəncliyin səsi” verilişləri hazırlanmış, “Nuhçıxan” İnformasiya Agentliyinin saytında 6 material yerləşdirilmiş, “Şərq qapısı” qəzetində 4 yazı dərc edilmişdir.

*Dövlət proqramının icrası istiqamətində həyata keçirilən uğurlu fəaliyyət parlaq nailiyyətlərlə müşahidə olunur. Bu uğurlar isə qarşıdakı dövrdə daha böyük nailiyyətlərin qazanılacağına güclü inam yaradır.*

**“Şərq qapısı”**

## Növbəti seminar-müşavirə keçirilib

*Naxçıvan Şəhər Nəqliyyat İdarəsində şəhərdaxili, şəhərlərarası, rayonlararası nəqliyyatda taksi ilə sərnişindaşıma xidməti göstərən sürücülərlə “İctimai nəqliyyat vasitələrində təhlükəsizliyin təmin edilməsi” mövzusunda seminar-müşavirə keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin sektor müdiri Natiq Həsənov çıxış edərək bildirib ki, “Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişindaşımalarını yerinə yetirən sürücülərin intizam Qaydaları”nın tətbiqi mütəmadi olaraq nəzarətdə saxlanılır, şəhərlərarası, şəhərdaxili marşrut və taksi sürücüləri vaxtaşırı təlimatlandırılır, təhlükəsizlik cihazlarından istifadə qaydaları onların nəzərinə çatdırılır.

Sonra xidmətin sektor müdiri Zaur Əliyev sürücüləri avtomobil nəqliyyatı ilə sərnişindaşıma sahəsində lisenziyanın verilməsi haqqında məlumatlandıraraq bildirib ki, Ali Məclis Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanına əsasən Dövlət Nəqliyyat Xidməti tərəfindən 2018-ci il noyabr



ayının 1-dən etibarən avtomobil nəqliyyatı ilə sərnişin daşınması fəaliyyətinə lisenziyanın verilməsinə başlanılıb. Ötən müddət ərzində muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən sürücülərlə lisenziyanın şərtləri və alınması üçün lazım olan sənədlər barəsində maarifləndirici söhbətlər aparılıb, lazımi köməklik göstərilib.

Qeyd olunub ki, lisenziyanın qüvvədəolma müddəti 1 ildir, lisenziya əsasında sərnişindaşımanı həyata keçirən nəqliyyat vasitələri lisenziya kartı ilə təmin edilir, sahibkarlara lisenziyalarla yanaşı, lisenziyaya əlavə də verilir ki, bu əlavədə lisenziya sahibinin vəzifələri və məsuliyyəti göstərilir.

Sonda suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Naxçıvan şəhəri, 19-cu məhəllə, bina 5, mənzil 30 ünvanında Bağırov Sahib Abbas oğlunun adına olan evin 7034 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, İstiqlal küçəsi, bina 129, mənzil 35-də yaşayan Hacıyev Bayram Ağakişi oğlunun adına olan 9640 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 363